**AZƏRBAYCAN RESPUBLİKASI**
**İCBARİ TİBBİ SIĞORTA ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN**

# İDARƏ HEYƏTİNİN QƏRARI

№ 23

**Bakı şəhəri** “08” avqust 2022

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 2021-ci il 10 dekabr tarixli 43 nömrəli Qərarı ilə təsdiq edilmiş “Tibb müəssisələrində ixtisaslı kadr çatışmazlığının aradan qaldırılmasına dair 2022-2023-cü illər üçün Proqram”na dəyişiklik edilməsi haqqında**

“Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində kadr çatışmazlığı probleminin aradan qaldırılması, qabaqcıl üsulların tətbiqi, kadr potensialının gücləndirilməsi və tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi”nin 4.5.21-ci yarımbəndini rəhbər tutaraq, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti

**qərara alır:**

1. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 2021-ci il 10 dekabr tarixli 43 nömrəli Qərarı ilə təsdiq edilmiş “Tibb müəssisələrində ixtisaslı kadr çatışmazlığının aradan qaldırılmasına dair 2022-2023-cü illər üçün Proqram”ında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1-ci bənddə “(Avropa İttifaqı ölkələri, ABŞ, Türkiyə Cümhuriyyəti)” sözləri çıxarılsın.

1.2. 3.7-ci bənddə “10 nəfərdən çox olmamaqla” sözləri “komissiyanın müəyyən etdiyi say həddində” sözləri ilə əvəz edilsin.

1.3. 5.2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“5.2. Proqramın 3.2-ci bəndində həkim mütəxəssislərə ödənilməsi nəzərdə tutulmuş həvəsləndirici əlavələrin məbləği müvafiq tibb müəssisəsinin rəhbərinin sifarişi əsasında icbari tibbi sığorta fondunun 2022-ci il üzrə büdcəsinin “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində kadr potensialının gücləndirilməsi layihəsi üzrə xərclər maddəsi”ndə nəzərdə tutulmuş vəsait hesabına maliyyələşdirilir. Qaydaya uyğun olaraq həkim mütəxəssislərə işin nəticələrinə görə hesablanmış həvəsləndirici əlavələrin məbləği Proqramın 3.2-ci bəndində nəzərdə tutulmuş həvəsləndirici əlavələrin məbləğindən çox olduğu

halda yaranacaq fərqin maliyyələşdirilməsi icbari tibbi sığorta fondunun 2022-ci il üzrə büdcəsinin "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələri üzrə icbari tibbi sığorta və digər ödənişlər maddəsi"ndə nəzərdə tutulmuş vəsait hesabına aparılır.".

2. Bu Qərarın 5-ci hissəsi nəzərə alınmaqla Qərarın icrasından irəli gələn maliyyə məsələlərinin həlli İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Maliyyə departamentinin rəhbərinə (R.Həsənov) tapşırılsın.

3. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Marketinq və ictimaiyyətlə əlaqələr departamenti (A.Əhmədova) bu Qərarın Agentliyin rəsmi internet saytında yerləşdirilməsini təmin etsin.

4. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin struktur bölmələrinin, o cümlədən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin və onun tabeliyindəki tibb müəssisələrinin bu Qərarla tanış edilməsi Vətəndaş müraciətləri və sənədlərlə iş departamentinin rəhbərinə (E.Mikayılov) tapşırılsın.

5. Bu Qərarın 1-ci hissəsi 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

6. Bu Qərarın icrasına ümumi nəzarət İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramovaya həvalə edilsin.

Əsas: Maliyyə və Strateji təhlil departamentlərinin təklifləri.

**İdarə Heyətinin sədri** **Zaur Əliyev**